**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏDƏNİYYƏT ANTROPOLOGİYASI VƏ RİAYƏT EDİLMƏLİ QAYDALAR
# ("KİTABİ-DƏDƏ QORQUD" VƏ "NİBELUNQLAR NƏĞMƏSİ" EPOSLARI ƏSASINDA)

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Fəxriyyə Əhəd qızı Kazımlı**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Rəhilə Məmməd qızı Qeybullayeva**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Vaqif Soltan oğlu Verdiyev**

filologiya elmləri doktoru, professor
**Xatirə Bədrəddin qızı Başirli**

filologiya elmləri doktoru, dosent
**Lalə Tofiq qızı Həsənova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 - Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ______________ AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: ______________ filologiya üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: ______________ filologiya elmləri doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mədəni antropologiya epik mətnlərdə yalnız davranış etiketləri kimi çıxış etmir, həm də süjetin motiv strukturunu təşkil edir. Süfrə, qiyafət etiketləri, qadın və kişi personajların sosial ierarxiyada yeri və mövqeyi epos poetikasının vacib məsələsi kimi diqqəti cəlb edir.

Arxaik oğuz və german cəmiyyətlərində riayət edilməli qaydalar etnik düşüncənin bərpası baxımından da maraq doğurur. Müqayisəli tipoloji təhlil tədqiqata cəlb olunmuş "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposlarında paralel motivlərin, arxaik ritual davranış qaydalarının süjet və obrazlarda proeksiyasını izləməyə imkan verir.

Riayət edilməli qaydalar hər iki epik mətnin aksioloji dünyasını formalaşdırır. Epik qəhrəmanların davranış streotipləri, geyim, süfrə etiketləri etnik-mədəni konteksti müəyyənləşdirir. Bir sözlə, mədəni antropologiya kommunukativ əlaqələrin və semiotik sistemin yaranmasında mühüm rol oynayır.

Elm və tədqiqat sahələrinin qloballaşması, fənlərarası inteqrasiyanın genişlənməsi komporativistika üçün yeni imkanlar açır. Fəlsəfə, kulturologiya, psixologiya, etnoqrafiya və başqa humanitar elmlərin ədəbiyyatşünaslıq məkanına daxil olması yeni baxış bucağının formalaşmasını şərtləndirir. Fərqli etnik-mədəni sistemlərə mənsub olan epik mətnlərin müqayisəli təhlili alman və türk mədəniyyətlərinin tədqiqində Ortaçağ oğuz və german eposları – "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" fərqli semiotik-semantik kodlara, süjet-təhkiyə ənənəsinə malikdir.

Fərqli diskurs araşdırmalarını (tarixi, ideoloji, sosial və s.) özündə mükəmməl surətdə qoruyub saxlamış bu abidələrin şərhi yeni yanaşmalar tələb edir ki, onlardan biri də mədəniyyət antropologiyasıdır. Mədəniyyət antropologiyası metodoloji yanaşma kimi sujet-təhkiyə qatlarının sosial substraktının öyrənilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, həm də vizual və sosial antropologiyanın elementləri ilə sıx bağlıdır. Cəmiyyətdə bu elementləri riayət edilməli qaydalar, mədəniyyət toplusu kimi araşdırırıq. Çünki riayət edilməli qaydalar xalqın, cəmiyyətin

mədəniyyətindən xəbər verir. "Mədəniyyət antropologiyası və riayət edilməli qaydalar: "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposları əsasında" mövzusunda dissertasiya işinin tədqiqata cəlb olunması təsadüfü hal deyil. Hər iki epos istər zaman baxımından, istər tarixi-mədəni, istərsə də, ictimai-siyasi baxımdan bir-biri ilə səsləşən keçmişə malik əsərlərdir. Eposların tədqiqi tarixinə nəzər salsaq görərik ki, onların birgə araşdırılması tarixi hələ çox yeni olduğu üçün bu mövzuya müxtəlif konteksələrdən yanaşıla bilər. Eyni zamanda da hər iki eposun sosial-antropoloji cəhətdən müqayisəli şəkildə araşdırılması olduqca aktualdır və folklorşünaslıq elminin qarşısında duran aktual problemlərdəndir.

Mövzunun Azərbaycan ədəbiyyatında, folklorşünaslığında öyrənilmə dərəcəsinə gəldikdə qeyd etməliyik ki, "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" ədəbi ənənə kimi formalaşmağa başlayıb.

Son vaxtlar Azərbaycan və alman filoloqları komporativ ədəbiyyatşünaslıq müstəvisində "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"ni fərqli aspektlərdə (poetika, kultroloji, dilçilik və s.) təhlilə cəlb edirlər.

Təsadüfi deyil ki, "Kitabi-Dədə Qorqud" dastanının ilk tədqiq tarixi və taleyi də Almaniya ilə, alman şərqşünası Haynrix Fridrix fon Ditsin adı ilə bağlıdır. "Kitabi-Dədə Qorqud"un ən qədim əlyazması Drezden kitabxanasında saxlanılır. Məhz F.Ditsin "Basatın Təpəgözü öldürdüyü boy"unu 1815-ci ildə alman dilinə tərcümə etməsi ilə türkologiyanın qüdrətli bir qolu – qorqudşünaslıq yarandı. Qorqudşünaslığın F.Ditsdən başlanan böyük və şərəfli yolu mənəvi-coğrafi hüdudlarını genişləndirmiş, yeni humanitar səviyyəyə qalxmışdır. Bunu Bakı Slavyan Universiteti ilə Mayns Universitetinin (Almaniya) birgə keçirdiyi beynəlxalq simpoziumlar da təsdiq edir. Akademik K.Abdullayevin təbiri ilə desək, bu simpoziumların başlıca dəyəri ondadır ki, artıq "Kitabi-Dədə Qorqud" germanistlərin, "Nibelunqlar nəğməsi" isə türkoloqların araşdırma obyektinə çevrilmişdir.

Hər iki epos həm ayrı-ayrılıqda həm də, müxtəlif xalqların dastanları ilə müqayisəli şəkildə kifayət qədər tədqiqatlara cəlb olunsa da, türk və alman eposlarının yəni – "Kitabi-Dədə Qorqud"

və "Nibelunqlar nəğməsi" eposlarının müqayisəli zəmində araşdırılması məsələsi folklorşünaslıq elminin qarşısında bir problem kimi məhz 2009-cu ildən qoyuldu və beşillik layihə imzalandı. Bu layihə əsasında "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"nin dil xüsusiyyətləri, eposların ədəbi xüsusiyyətləri, onların kurturoloji aspektdən işıqlandırılması, eposların tarixi nöqteyi-nəzərdən, sosioloji aspektdən təhlili nəzərdə tutuldu. Bu layihədən sonra keçirilən konfranslarda Kamal Abdulla "Kitabi-Dədə Qorqudda mifoloji anavariantlar arxetiplər) sistemi", prof. Bədirxan Əhmədov "Nibelunqlar ölkəsindən başlanan "Dədə Qorqud" həyatının milli arealda araşdırılması problemləri", İbadət Rüstəmov "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"ndə sujet və motiv paralelləri, dos. Telman Kazımov "Kitabi-Dədə Qorqud" dastanları və Haynrix Fridrix fon Ditsin Azərbaycan ədəbiyyatşünaslığına töhfələri, prof. Fərəh Cəlil "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposlarında döyüşçü qadın obrazlarının genezisi, prof. İkram Qasımov "Kitabi-Dədə Qorqud" dastanlarının hərbi leksikası, prof. Fəxrəddin Veysəlov "İki dastanın müqayisəsi: oxşarlıqlar və fərqlər" məqalə şəklində, prof. Rəhilə Qeybullayeva isə "Epos tarix və mif qovşağında ("Kitabi-Dədə Qorqud" və "Nibelunqlar haqqında nəğmə" əsasında), "Ədəbiyyatda darvinizm və ya sosial mədəniyyət modelləri orta əsrlər eposu aynasında ("Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi")" adlı kitablarında iki eposu müqayisəli şəkildə tədqiq etmişdir.

Bu elmi ideyanı öncələyən mühüm məqam, BSU-da 2008-ci ildə keçirilən Almaniyanın Tubingen Universitetinin Mədəniyyət Antropologiyası İnstitutu və Bonn Universteti ilə, Azərbaycan dili, mədəniyyəti və antropologiyasını öyrənmək məqsədilə Azərbaycana gələn alman tələbələri üçün təşkil olunmuş və iki yay məktəbi formatında reallaşdırılmışdır. Layihənin yeni etapda davamı olaraq "Germanistika və Qafqaz" konfransları son üç ildə davamlı olaraq keçirilir (2022 – 2024). Qeyd edək ki, bu layihə yalnız filoloji, tarixi-sosioloji hadisə olmaqla yekunlaşmadı, eyni zamanda kulturoloji əhəmiyyət də daşıdı. Belə ki, Qərb düşüncəsinə Azərbaycanın qədimliyini, mədəni irsini və adət-ənənələrini, bir növ, həkk etdirən elmi hadisəyə çevrildi.

**Tədqiqatın obyekti və predmeti.** "Kitabi-Dədə Qorqud" və

“Nibelunqlar nəğməsi” eposları təşkil edir. Tədqiqatın predmetinə isə “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi”ndə mədəniyyət antropologiyasının və sosial strukturların funksional təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. İlk baxışdan fərqli görünən müasir almanların və azərbaycanlıların əcdadlarının orta əsrlərdə hansı qaydalara riayət etdikləri, mədəni antropoloji gerçəkliyin bərpası, sosial, ritual davranış aktlarını araşdırmaq və onları müqayisəyə cəlb etmək məqsədimiz olduğuna görə problemin həlli üçün aşağıdakı vəzifələri müəyyənləşdirdik:

- Oğuz və german eposları mədəniyyət və sosial antropologiyasının qaynaqlarından biri kimi;
- “Kitabi-Dədə Qorqud”da və “Nibelunqlar nəğməsi”ndə süfrə və qiyafət etiketlərinin müəyyən edilməsi;
- epik kommunukativ münasibətlərin sosial etiket sferası kimi göstərilməsi;
- Oğuz sosial ierarxiyasında ritual davranış, o cümlədən qohumluq (ata-oğul, qardaş, dayı, oğul-ana) münasibətlərinin funksional rolunun nəzərdən keçirilməsi;
- “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi”ndə qadın mövqeyini riayət edilməli qaydalar kontekstində aydınlaşdırmaq;
- sosial etiketlərin və davranış aktlarının eposun poetikasının mühüm kateqoriyası kimi nəzərdən keçirilməsi.

**Tədqiqat metodları.** Ədəbiyyat Antropologiyası antropologiyanın nisbətən yeni bir alt sahəsidir və ədəbiyyatla mədəniyyətin kəsişməsini araşdırır. Bu sahə sosial və mədəni antropologiyanın metodologiyalarından və nəzəriyyələrindən istifadə edərək, ədəbiyyatın cəmiyyətin mədəniyyət qaydalarını necə əks etdirdiyini, sosial münasibətləri və mədəniyyətin digər aspektlərini necə təqdim etdiyini analiz edir.

Ədəbiyyat antropologiyası ədəbiyyatı yalnız estetik bir fəaliyyət olaraq deyil, eyni zamanda bir mədəniyyətin kollektiv yaddaşını, sosial dinamikalarını və əxlaqi dəyərlərini təmsil edən bir vasitə kimi nəzərdən keçirir (Richard Bauman, 1992). Məsələn, ədəbiyyatdakı simvolik təsvirlər, mifoloji motivlər, obrazlar və hekayə strukturları, onları yaradan cəmiyyətlərin sosial və mədəni praktikalarını anlamaq

üçün bir vasitə kimi xidmət edir (Sherry Beth Ortner, 1973).

Amerikalı antropoloq və sosioloq Clifford Geertzin (1973) sözlərinə görə, ədəbiyyat mədəniyyətin geniş bir kontekstində "mətn" kimi başa düşülməlidir, ingiliz antropoloqu Mary Douglasun (1966) işləri isə ədəbi nağılların simvolik ölçülərini sosial nizamla əlaqələndirərək, bu təhlillərə mühüm töhfə vermişdir.[1]

Ədəbiyyat antropologiyası nisbətən yeni bir sahə olsa da, o, hekayə və bədii əsərlərin antropoloji tədqiqatlarda necə istifadə edildiyini və keçmişlə müasir mədəni sistemləri necə izah etdiyini başa düşmək üçün vacib bir vasitə olmuşdur.

Beləliklə, biz eposları mədəniyyət və sosial antropologiyasının[2] qaynaqlarından biri kimi götürürük və bu istiqamətdə də tədqiqat işinin nəzəri-metodoloji bazası iki əsas qaynaqdan ibarətdir:

- Azərbaycan ədəbiyyatının və folklorunun əsas problemləri ilə bağlı Azərbaycandakı elmi-nəzəri qaynaqlar;

---

[1] Bauman, R. Story, Performance, and Event: Contextual Studies of Oral Narrative / R. Bauman. – New York: Cambridge University Press, – 1992. – 127 p.; Brennan, T. At Home in the World: The Cultural Anthropology of the Human Being / T.Brennan. – Cambridge: Harvard UP, Princeton University Press, – 1997. – 369 p.;Douglas, M. Purity and Danger: An Analysis of Concepts of Pollution and Taboo / M.Douglas. – London: Routledge classics, – 1966. – 272 p.;Geertz, C. The Interpretation of Cultures / C.Geertz. – New York: Basic Books, – 1973. – 30 p.;Lutz, D., & Collins, L. Literary Anthropology: From Text to Culture / D.Lutz, & L.Collins. – Chicago: University of Chicago Press, – 1993. – 328 p. ;Ortner, S. Anthropology and Social Theory: Culture, Power, and the Acting Subject. Durham, NC: Duke University Press, – 2006. – 48 p.

[2] Sosial Antropologiya (Emile Durkheim və Maks Weber tərəfindən irəli sürülmüşdür) cəmiyyətin təşkili və insan davranışlarını öyrənməyə fokuslanır. Mədəniyyət Antropologiyası (Frans Boas tərəfindən populyarlaşdırılmışdır) mədəniyyət praktikasını, adət-ənənələri və ritüalları araşdırır. Ədəbiyyat Antropologiyasının qurucularından biri Fransız antropoloq və filosogu Klod Levi-Straussdur. Levi-Strauss daha çox struktur antropologiyası sahəsindəki işləri ilə tanınsa da, o həmçinin ədəbiyyat antropologiyasının təməlini quran alimlərdən biridir. O, struktur təhlili miflərə, folklora və ədəbiyyata tətbiq edərək hekayələrin və narrativlərin mədəni kimlik və sosial strukturu necə formalaşdırdığını araşdırmışdır. Onun "Miflərin Struktur Araşdırması" (1955) və "Totemizm" (1962) kimi əsərləri antropologiyanı ədəbiyyatşünaslıqla əlaqələndirmiş və ədəbiyyatda narrativ və simvolik strukturların dərin mədəni naxışları necə əks etdirdiyini vurğulamışdır.

- Mədəniyyət antropologiyası ilə bağlı elmi qaynaqlar.

Tədqiqat işində epik mətnlər struktural-semantik yöndən də araşdırılmışdır. Bu səbəbdən də semiotika və müqayisəli-tipoloji metodların imkanlarından da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiyada müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

**1.** Epos mədəniyyət antropologiyası haqqında əsas informasiya mənbələrindən biridir. Belə ki, epos yaradıcılığında bir çox dəyərlərlə yanaşı, bu dəyərlərin reallaşması, məişətdə və sosial mühitdə davranış etiketi, və riayət olunmalı qaydalar öz əksini tapır.

**2.** Eposun mədəniyyət antropologiyasının mənbəyi olması yalnız bir xalqa deyil, bütünlükdə istər şərq, istərsə də qərb kulturoloji düşüncəsinin ifadə forması olduğunu təsdiq edən faktor Avropa və türk dastanlarından nümunə kimi götürülən "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposlarının qarşılaşdırılması zamanı öz təsdiqini tapır. "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposlarında mədəniyyət antropologiyası bilavasitə ədəbi-bədii mətnlər əsasında ortaya çıxarılır.

**3.** "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"ndə etik-epik qaydalara daxil olan elementlər kimi, geyim etiketi, döyüş və ziyafət geyimləri də diqqət çəkir. Türk və german tayfalarının mədəniyyətinin ifadəsi kimi hər xalqın geyim, yemək mədəniyyəti onun etnokuluroloji dəyərləri səviyyəsində formalaşır və xüsusi kolorit kəsb edir. Daha dəqiq desək, hər xalqda bu etiketlər onların milli xüsusiyyətlərini özündə ehtiva edir.

**4.** Eposlarda sosial antropologiyanın mənbəyi kimi ictimai münasibət formaları öz əksini tapır, o cümlədən kişi və qadının ailədə və cəmiyyətdə mövqeyi açıqlanır. "Kitabi-Dədə Qorqud" dastanında qadının ailədə və sosial mühitdə hörməti vurğulanır. Eyni zamanda qadının ərinə olan yüksək hörməti və sədaqəti göz önünə gətirilir. "Nibelunqlar nəğməsi"ndə də qadın sədaqəti bu baxımdan maraq doğurur.

**5.** Yüzilliklərin sınağından çıxan, formalaşan adət-ənənələr, bir sözlə, etnik-milli ənənələrin təzahürü eposlarda əks olunur. Eyni zamanda mifik dünyagörüşün mədəniyyət antropologiyasının tərkib hissəsi kimi ortaya çıxması bir çox etik dəyərlərin məhz mifoloji

yaddaşa görə formalaşması diqqət çəkir.

**Tədqiqat işinin elmi yeniliyi.** Tədqiqat işi, mədəniyyət antropologiyasının epik mətnlərdəki yeri və rolunu təhlil edərək, "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" əsərlərini mədəniyyətin və sosial strukturların nümunəsi kimi araşdırır. Araşdırma mədəniyyət və sosial antropologiya nəzəriyyələrini tətbiq edərək, bu epik əsərlərin sosial və mədəni həyatın müxtəlif təzahürlərini necə təsvir etdiyini və bu mədəniyyətlərin arxetipik qaydalarla necə əlaqələndiyini göstərir. Dissertasiyanın əsas elmi yeniliyi mədəniyyət antropologiyasının müxtəlif məktəblərini tətbiq etməklə, bu iki epik əsərdəki mədəniyyət dəyərlərinin və etik normativlərin necə formalaşdığını və tətbiq edildiyini izah etməsidir. Bu araşdırma işin nəzəri hissəsində bəhs edəcəyimiz nəzəriyyələr əsasında qurulmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi həm nəzəri, həm də praktiki aktuallığa malikdir. İşin nəzəri əhəmiyyəti ondadır ki, riayət edilməli qaydaların öyrənilməsi eposun sosial fəlsəfəsini anlamağa imkan verir. "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" mükəmməl və mürəkkəb bədii sistemlərdirsə, onda qəhrəmanların sosial-ritual davranışı, silahlara, qadınlara münasibəti, etiketlər bu sistemin ayrılmaz tərkib hissəsidir. Hər iki eposun mədəniyyət antropologiyası müstəvisində tədqiqi arxaik və ya ortaçağ insanının davranış modellərini və dəyər sistemini, süjet situasiyalarını və təhkiyənin təşkilini, xronotopları müəyyən etməyə kömək edir. Mədəniyyət antropologiyası epos poetikası və semiotikası üçün yeni yanaşma imkanları yaradır. Bu da Azərbaycan ədəbiyyatında, folklorşünaslığında aparılacaq gələcək tədqiqatlarda işin nəticə və yeniliklərindən istifadə imkanı verir.

Dissertasiyanın praktiki əhəmiyyəti ondadır ki, mədəniyyət antropologiyası bir nəzəri-metodoloji yanaşma kimi, Azərbaycan (türk) və german (alman) epos ənənələrinin tipologiyasını təsəvvür etməyə imkan verir. Xüsusən də tətbiq edilən metodika və mülahizələr Azərbaycan dastançılığının nəzəri məsələlərinə həsr olunmuş araşdırmalarda istifadə oluna bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəa və nəticələri Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə, müəllifin bir sıra Beynəlxalq və Respublika miqyaslı elmi-praktik konfranslardakı çıxışlarında, eləcə də müxtəlif elmi məcmuələrdə dərc edilən məqalələrdə əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş, üç fəsil (I fəsildə 4, II və III fəsildə 3 paraqraf olmaqla), nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi: 228 938 (Giriş – 28 549 işarə; I fəsil – 86 687 işarə; II fəsil – 65 685 işarə, III fəsil 42 858, Nəticə – 5 159 işarə) şərti işarədir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın metodları, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti izah edilir. Müdafiəyə çıxarılan əsas müddəalar və işin aprobasiyası haqqında məlumat verilir.

**Dissertasiyanın "Epik əsərlərdə etik-epik qaydalar" adlanan birinci fəslində** tədqiqatın məqsədi epik mətnlərdə etik dəyərlər və mədəni antropologiya olduğu üçün araşdırmada bu sahədə inkişaf edən nəzəriyyələrə və məktəblərə nəzər salınır. Eyni zamanda məktəb və nəzəriyyələrin əsas nümayəndələrinin bu istiqamətdəki fəaliyyətlərindən bəhs olunur. Bu nəzəriyyələr insan mədəniyyətlərinin və sosial qarşılıqlı əlaqələrin mürəkkəbliyini təhlil etmək və anlamaq üçün müxtəlif baxış bucaqları təklif edir. Ədəbiyyatda mədəniyyət anlayışının necə təmsil olunduğunu və bu təmsillərin necə şərh olunduğunu anlamaq üçün müxtəlif tədqiqat metodları və yanaşmalar mövcud olduğu göstərilir. İki

eposun müqayisəli şəkildə tədqiq olunduğunu nəzərə alaraq müqayisəli yanaşma metodu ilə müxtəlif ədəbiyyatlar arasında mədəni fərqləri və oxşarlıqları araşdırılır. Eyni mədəni motivlərin və ya sosial strukturların fərqli cəmiyyətlərdə necə təqdim olunduğunu müqayisəli təhlillə müəyyən edilir. "Kitabi-Dədə Qorqud"dakı motivlər və süjet xəttlərini digər türk epikləri və dünya ədəbiyyatındakı digər qəhrəmanlıq dastanları ilə müqayisə etməklə, epik qəhrəmanlıq anlayışlarını müqayisə etməklə, oxşar və fərqli cəhətləri mədəniyyət antropologiyası baxımından analiz edilməsindən bəhs edilir.

Birinci fəslin **"Mədəniyyət antropologiyası və onun ədəbi-bədii mətnlərdə əksi"** adlanan birinci paraqrafında göstərilir ki, *"Epik irs hər dövrdə bütün mədəniyyətlər üçün ən önəmli mənbələrdən biri kimi çıxış edir"*[3]. Bu mənbələrdə xüsusən də, dastan yaradıcılığında etnosun zahiri görkəmi, davranışları, adı, dünyagörüşü, mərasimləri, adət-ənənəsi və bunun kimi bir çox dəyərləri öz əksini tapır. "Kitabi-Dədə Qorqud" eposunun bir neçə boyunda qəhrəmanının zahiri əlamətindən gözünün qıyma, oğuz qadınlarının hündür boylu, incə belli olduğu (oğuzların o dövr üçün gözəllik etalonu) – *"Boyu uzun, beli incə Burla xatun boynilə qulağın aldı düşdi"*[4] təsvir edilir. Davranışa gəldikdə, bir qayda olaraq qadınlar hörmət əlaməti kimi oğulları, ərləri, ataları evə gələrkən ayağa qalxaraq onları ayaqda qarşılayardılar: "*Yumurlanıb yerindən uru durdu. Qırx incə belli qızı boyuna aldı. Dirsə xana qarşu vardı*"[5].

Arxaik eposlarda maraqlı məqamlardan biri də adların böyük informasiya daşıyıcısı olmasıdır. Əksər hallarda insanlara onların məxsus olduqları orqonun yaxud totemin adı verilirdi, və ya bu şəxslər hər hansı bir kult adının daşıyıcısı olurdular.

---

[3] Acalov, A.M. Azərbaycan dastanlarının mifoloji semantikası (ölüb-dirilmə motivi) // – Bakı: Azərb. SSR EA Xəbərləri, – 1974. №3, – s. 3.

[4] "Kitabi-Dədə Qorqud". Əsil və sadələşdirilnıiş mətnlər / Tərt.ed. S.Əlizadə, Nəşrə haz. və red. T.Hacızadə. – Bakı: Öndər nəşriyyatı, – 2004. – s. 47

[5] "Kitabi-Dədə Qorqud". Əsil və sadələşdirilnıiş mətnlər / Tərt.ed. S.Əlizadə, Nəşrə haz. və red. T.Hacızadə. – Bakı: Öndər nəşriyyatı, – 2004. – s. 22.

Komporativistika və antropologiya sahəsində elmi tədqiqatlar aparan R.Qeybullayeva adların semantikasından yola çıxaraq bəzi məsələlərə aydınlıq gətirməyi vacib hesab etmişdir. O, fikrini əsaslandırmaq üçün prof. Volfqanq Haubrihin fikirlərinə istinadən yazır: "V.Haubrih "Qəhrəman adlarının mənaları" adlı məqaləsində adların semantikasına aydınlıq gətirmədən öncə onun təsnifatlandırılma tarixinə və Hendrik Birusun 4 növdə sistemləşdirdiyi adların tipologiyasına nəzər salmışdır:

*"Birinci növə canlandırılan adlar aiddir. Burada real mövcud və uydurdulmuş şəxs ilə əlaqəli olan ədəbi adlar nəzərdə tutulur.*

*İkinci növə qruplaşdırılan adlara müəyyən sosial, dini, etnik qrup ilə əlaqədar olan adlar aiddir.*

*Üçüncü qrupa səsli simvolik adlar daxildir. Burada semantikası əsasən səslənməyə əsaslanan adlar nəzərdə tutulur.*

*Dördüncü qrupa danışan adlar – etimoloji strukturu aydın olan və ya müəyyən qədər aydın olan və gündəlik danışıqda işlənən sözlərdə eynilik təşkil edən adlar aiddir"*[6].

Qədim türk adətlərində adın qazanılması faktoru mövcuddur. Biz bu faktorun "Kitabi-Dədə Qorqud"da olduğunu görməkdəyik. Buna görə də tədqiqat işində bu sistemi bir qədər də epik mətnlərə uyğunlaşdırma yolu ilə eposlarda adların stukturu (dini, etnik, sosial status) təhlil edilir. Aydın olur ki, epik mətn yalnız şifahi yaradıcılıq nümunəsi deyil, eyni zamanda canlı mədəniyyət abidəsidir. Hətta personajların ad daşıyıcılığı belə tarixi, etnoqrafik yaddaşın ifadə formasıdır və bir növ genetik ötürücülük xarakterinə malikdir.

Birinci fəslin **"Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"ndə etik qaydalar"** adlanan ikinci paraqrafında fransız sözü olan etiket ("etiquette") sözünün mənası açıqlanır. Aydın olur ki, etiket ictimai yerdə, başqa şəxslərin yanında, onlarla ünsiyyətdə olduqda, yaxud hər hansı bir cəmiyyətdə qəbul edilmiş davranış və nəzakət formasıdır.

Etiket ümumilikdə – insanların məişətdə, hərbi xidmətdə, ictimai yerlərdə, küçədə, qonaqlıqlarda, müxtəlif növ rəsmi

---

[6] Гейбуллаева, Р. Сравнительная типология прозы и литературные типы / Р. Гейбуллаева. – Баку: Эльм, – 2000. – с. 64.

tədbirlərdə davranışlarını tənzimləyir. Etiketin mühüm bir hissəsini süfrə etiketi təşkil edir. Süfrədə vacib sayılan yemək etiketinin müxtəlif xalqlarda, cəmiyyətin müxtəlif təbəqələrində haradan gəlib necə formalaşması mənbələri yalnız etiket traktatları ilə bağlı deyil, eyni zamanda dolayı mənbələrlə – epos mətnləri ilə də bağlı olduğu göstərilir. Süfrə etiketindən danışarkən günümüzədək gəlib çıxan qonaq qarşılama, süfrədə həmin xalqın mədəniyyətində mühüm yer tutan yeməklərin də olması vacib etiketlərdəndir. Çünki bu etiketin yerinə yetirilməsi qonağa hörmət əlamətindən xəbər verir. Etiket qaydalarına əsasən, ziyafəti hazırlayan ev sahibi qonaqpərvər, gülərüz olmalıdır. İstər coğrafi, istərsə də milli xüsusiyyətlər baxımından fərqli olan alman və Azərbaycan xalqının nadir incilərindən sayılan "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposlarına müraciət etməklə, həmin xalqlara məxsus adət və ənənələrin nə dərəcədə əks olunduğu aydınlaşdırılır.

Ümumiyyətlə, mətn təhlili ilə ədəbiyyatın əsas elementi olaraq mətnlərdə antropoloji baxımdan mədəniyyət dəyərlərin, simvolların, miflərin və sosial strukturların necə təmsil olunduğunu öyrənilir. Ədəbiyyat vasitəsilə hər hansı bir cəmiyyətin dünyagörüşünü, adət-ənənələrini və düşüncə tərzini araşdırır. "Kitabi-Dədə Qorqud" eposu oğuz cəmiyyətinin mədəniyyətin müxtəlif təzahürlərini təqdim edir.

Eposlardan aydın olur ki, ziyafət və yığıncaqlar zamanı süfrə dəbdəbə ilə bəzədilir və həmişə yemək bol olurdu. Yeməklə yanaşı süfrəyə içkilər də qoyulur. Hər iki eposda süfrədə yeməklərlə bərabər şərab təqdim olunur. "Kitabi-Dədə Qorqud" eposunda süfrədə şəraba rast gəlməklə yanaşı, həm də bəlli olur ki, hələ qədim dövrlərdən türk qövmü müxtəlif şərab növlərinə bələd olmuşlar. Məhz bu səbəbdən eposda "al şərabın tündü" ifadəsi işlədilir. Məsələn, "Dirsə xan oğlu Buğac boyu"nda *"Al şərabın tündünü aldı, içdi"*[7] deyilir .

"Nibelunqlar nəğməsi"ndə şərabın şirin növündən bəhs olunur, şərab qızıl cam və qablarda paylanırdı:

---

[7] "Kitabi-Dədə Qorqud". Əsil və sadələşdirilnıiş mətnlər / Tərt.ed. S.Əlizadə, Nəşrə haz. və red. T.Hacızadə. – Bakı: Öndər nəşriyyatı, – 2004. – s. 25

*"Bu günlərdən sonra onlar heç vaxt rastlaşmadılar.*
*Çoxlu qızıl qablara tökülmüş*
*Şərabdan qonaqlara süzərək, xoş niyyətin*
*Əlaməti kimi, çox gözəl qız küçəyə gətirmişdi"*[8].

"Kitabi-Dədə Qorqud" eposunda rast gəlinən digər içki növlərindən biri də qımızdır. Diqqət çəkən məqamlardan biri də budur ki, məhz ritual xarakterli məclisdə qımız sağdırılır. Bu da içkinin təyinatı ilə bağlıdır. Məclis Tanrıya yönləndirilmiş, nəzir-niyaz xarakterli olduğu üçün bu içki müqəddəs sayılan içkilər sırasındadır.

Tarixdən bəlli olduğu kimi, oğuz türkləri islamı qəbul etdikləri dövrə qədər böyük bir əksəriyyətlə şamanist düşüncəyə məxsus idilər. Görünür, məhz bu ritual xarakterli etiketlər "Kitabi-Dədə Qorqud" eposuna da transformasiya olunmuşdur. "Nibelunqlar nəğməsi"ndə isə bu xüsusiyyət *pivə* ilə bağlıdır. Nibelunqlarda böyük ziyafətlər zamanı süfrəyə pivə də qoyulurdu. Bu isə süfrənin necə bol-nemətli olmasına işarə edirdi. Bu düşüncə təsadüfi deyil. Pivənin məhz böyük ziyafətlərlə bağlılığı onun Tanrı içkisi, qımız kimi ritual içki xüsusiyyətindən doğur. Bunun sübutu kimi german-skandinav mifologiyasının məhsulu olan "Böyük Edda" əsərində deyilir: "*Dəniz nəhəngi Xyumirin Nəhəng pivə qazanı var. O, bu qazanla bütün tanrılara pivə bişirir. Lakin Tor və Tyur həmin qazanı onun əlindən alaraq nəhəng Egirə verirlər. Egir o qazanda yalnız Odinə və onun qonaqlarına pivə hazırlayır"*[9].

Coğrafi ərazisindən, milli adət-ənənəsindən asılı olmayaraq, hər bir xalq özünəməxsus şəkildə qonaq qarşılayır və bu adəti ən yüksək şəkildə yerinə yetirməyə çalışır. Yəni, qonaq qarşılamaq və süfrə mədəniyyəti, müəyyən fərqliliklərə baxmayaraq hər bir xalqa məxsus mədəniyyət faktorudur. Hər iki eposdan da gördüyümüz kimi, orta əsrlərdə riayət edilməli olan bu mədəniyyət faktoru, adət-ənənələri geniş şəkildə öz əksini tapır.

---

[8] Veysəlli, F. Nibelunqlar nəğməsi / F.Veysəlli. – Bakı: Mütərcim, – 2017. – s. 222.
[9] Беовульф. Старшая Эдда. Песнь о Нибелунгах / Беовульф.– Москва: Художественная Литература, – 1975. – с . 228.

Birinci fəslin **"Geyim etiketi və onun milli xüsusiyyətləri"** adlanan üçüncü paraqrafında göstərilir ki, geyim bəşəriyyətin yaratmış olduğu ən dəyərli mədəniyyət nümunələrindən biridir. İnsan geyimi onun inkişafı ilə birgə, daha dəqiq desək, onun inkişafına uyğun şəkildə formalaşmışdır. Qədim dövrlərdə geyim insan bədənini yalnız soyuqdan və ya istidən qorumaq vəzifəsini icra edirdisə, daha sonra geyim estetik xarakter qazanmış oldu. Lakin bir faktı da unuutmamalıyıq ki, hər bir qədim xalqın, o cümlədən şumer, ərəb, türk, hind, fars, yunan, çin, yapon, yaxud şimal xalqlarının klassik geyimləri onların yaşadığı mühit və həyat tərzi ilə bağlı təsəvvür yaradır.

Birinci fəslin **"Döyüş və ziyafət geyimləri"** adlanan dördüncü paraqrafında qeyd olunur ki, dastan yaradıcılığında hərbi geyimlər xüsusi yer tutur. Silah-sursat da bu geyimlərin tərkib hissəsi kimi dəyərləndirilir. "Kitabi-Dədə Qorqud" eposunda öz dövrünün geyim və silah tarixi də lazımınca işıqlandırılıb. Eposda hərbi geyim əsasən, dəmirdən olub, müxtəlif silahlarla zənginləşdirilirdi:

*"Qala bilən yigidə oqla qılıcdan bir çomaq yeg."*[10]
*"Dürtürkən ala göndərin ufanmasın."*[11]
*"Ala uran sur cidamı saxlardım."*[12]
*"Dirsə xan Qorqut sinirli qatı yayın əlinə aldı"*[13] *və s.*

Professor İkram Qasımov onu da qeyd edir ki, *"Cəmiyyətdə hər bir zümrənin özünəməxsus olan döyüş alətləri vardır. Məsələn, əgər döyüş zamanı Qaraca Çoban sapanddan, dəyənəkdən istifadə edirsə, xan oğlu Buğac bəy altun cidadan, qara polat üz qılıncdan, ağ tozluca qatı yaydan istifadə edir. Və*

---

[10] "Kitabi-Dədə Qorqud". Əsil və sadələşdirilnıiş mətnlər / Tərt.ed. S.Əlizadə, Nəşrə haz. və red. T.Hacızadə. – Bakı: Öndər nəşriyyatı, – 2004. – s. 32.
[11] Yenə orada, – s. 41
[12] "Kitabi-Dədə Qorqud". Əsil və sadələşdirilnıiş mətnlər / Tərt.ed. S.Əlizadə, Nəşrə haz. və red. T.Hacızadə. – Bakı: Öndər nəşriyyatı, – 2004. – s. 53.
[13] Yenə orada , – s. 35

*ya bəzirganlar bəy oğlu üçün hədiyyə kimi altı pərli gürz, ağ tozlu gatı yay alırlar"*[14]

"Nibelunqlar nəğməsi" eposunda döyüş geyim elementləri kifayət qədər özünəməxsus və zəngindir. Nümunə olaraq dəmir geyim (zireh), dəbilqə, qalxanı göstərə bilərik. Ziqmund oğlu Ziqfridi cəngavərlərlə yola salmaq üçün qiymətli cəngavər geyimləri, parıltılı silahlar, möhkəm dəbilqələr və gözəl, enli qalxanlar tam döyüş vəziyyətində hazır etdirmişdi. Onların layiqicə yola salınması üçün heç nədə tərəddüd edilməmişdi.

"Nibelunqlar nəğməsi"ndə bildiyimiz kimi geyim olduqca vacib faktorlardandır. Bu xüsusiyyət döyüşçülərdən də yan keçmir. Döyüşçülərin sayı silahları qədər geyimləri də önəm daşıyır. Eposda markqraf bildirir ki, mən tezliklə ölkədən çıxacam və Reyndə özümüzü ləyaqətlə tanıtmaq üçün libas, silah ehtiyata götürəcəm.

Rüdiger ölkəni tərk etməzdən əvvəl söyləyir ki, silah-sursatlarımızı hazırlamalıyıq. Bu hazırlığın əsas səbəblərindən biri odur ki, özünün və yanında aparacağı 500 igidin knyazların yanında hörmətli olmasını istəyir. Buradan da belə nəticə çıxara bilirik ki, döyüşçülərin geyimləri olduqca vacib faktordur.

Digər bir nümunədə oxuyuruq ki, markqraf öz həyat yoldaşından mehribancasına xahiş edir ki, buradan mənimlə birlikdə Rayna gedən qəhrəmanların libaslarının əla təchiz olunsun. Çünki bu onların əhval-ruhiyyəsinin yüksəlməsinə səbəb ola bilər.

"Nibelunqlar nəğməsi"ndə döyüşçülərin bahalı paltarlarla, silahlarla təsvirinə kifayət qədər nümunə gətirmək mümkündür. Məsələn, Xaqana qardaş olan Dankvart, atını Traonyaya çapır, ordan özü ilə böyük dəstə gətirir. Onların bahalı paltarlarının və silahlarının göz qamaşdırdığı təsvir edilir.

Geyimlə bağlı diqqət çəkən məqamlardan biri də ziyafətlərdə və qonağın qarşılanması zamanı geyinilən geyimlərə xüsusi önəm verilmiş, mərasimlə bağı xüsusi geyim kultu mövcud

---

[14] Qasımov, İ.M. "Kitabi-Dədə Qorqud" dastanlarının hərbi leksikası haqqında // – Bakı: Elmi əsərlər. Dil ədəbiyyat seriyası birgə nəşrin xüsusi buraxılışı, – 2010. – s. 207-214.

olmuşdur.

Bu fəsildən əldə olunan əsas müddəalar müəllifin dərc edilmiş müxtəlif məqalə və konfrans materiallarında işıqlandırılmışdır [15].

Dissertasiyanın **“Sosial münasibətlərdə qaydalar və epos sosial antropologiyanın mənbəyi kimi”** adlanan ikinci fəslində göstərilir ki, bir ədəbiyyat əsərinin tarixi kontekstdə təhlili, əsərin yazıldığı dövrün sosial və iqtisadi şəraitini daha yaxşı başa düşməyə imkan verir. Məsələn, Dədə Qorqud dastanının yaranma dövrünü nəzərə alaraq, türk tayfalarının sosial və siyasi mühitini anlamaq, əsərdəki mədəni dəyərlərin necə formalaşdığını və sosial hadisələrin necə təsir etdiyini daha dərindən ortaya qoyur. Bu yanaşma ilə, mədəniyyətlərin necə bir-birini təsir etdiyi, ideyaların və ənənələrin zamanla necə dəyişdiyi və inkişaf etdiyi açıq şəkildə görünür. Tarixi-kontekstual təhlil, həmçinin bir əsərin dərin mədəni qatlarını və dəyərlərini üzə çıxarır, bu da əsəri yalnız bir ədəbiyyat məhsulu deyil, eyni zamanda bir mədəniyyətin canlı təsviri kimi öyrənməyə imkan verir və eposun rolu yalnız şifahi xalq yaradıcılığı nümunəsi olmaqla tamamlanmır. Xüsusən də əgər bu milli-mənəvi mədəniyyət nümunəsi hər hansı bir tarixi dövrdə yazıya alnırsa, həmin dövrə

[15] Система обрядов в средневековом эпосе (на материале «Китаби-Деде Коркут» и «Песни о нибелунгах») // Давид Кугильтинов – поэт, философ, гражданин. Материалы Всероссийская научная конференции – Элиста: – 10-14 апреля, – 2012, – с. 107-108; Одежда как элемент этикета (на материале эпосов «Китаби-Деде Коргут» и «Песни о нибелунгах) // – Москва: Вестник. Московского государственного лингвистического университета, – 2013. №21 (682), – с.144-152; Döyüş və ziyafət geyimləri (“Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposları əsasında) // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları, – Bakı: – 7-8 aprel, – 2015, – s. 399-401; Этикеты блюд и элементов в эпосах (на материале эпосов «Китаби-Деде Коркут» и «Песни о нибелунгах») // Современная филология: теория и практика. Материалы XIX международной научно-практической конференции, – Москва: – 9-10 апреля, – 2015, – с. 118-123; Застольный этикет (элементы питья) эпосов “Книга моего Деда Коркута” и “Песни о Нибелунгах” // – Москва: Филологический вестник, Белгород, – 2025. №1, – s. 108-114.

məxsus bir çox dəyərlərlə yanaşı, sosial etiketin saxlancına çevrilir.

Dissertasiyanın bu fəsli Struktural antropologiya – hər iki epik əsərdə insan mədəniyyətlərinin universal strukturları (qohumluq sistemi) və bu strukturların mədəniyyətin etik və sosial qaydalarına necə təsir etdiyi araşdırılır.

Sosial etiketi formalaşdıran bir çox dəyərlərə xalqın siyasi-tarixi, sosial-mədəni mühiti də birbaşa təsir edir. Çünki hər bir xalqın yaxın mədəni münasibətdə olduğu digər xalqların məişət tərzi, inancları coğrafi şəraiti və s. sosial etiket mənbəyinə çevrilir. Bu isə xalqın zamanla formalaşdırdığı epos yaradıcılığına birbaşa təsir göstərir.

Sosial etiketin mənbəyi kimi ailə-məişət münasibətləri öndə gələn amillərdəndir. Bu amillər istər "Kitabi-Dədə Qorqud", istərsə də "Nibelunqlar nəğməsi"ndə geniş yer almışdır. Hər iki eposda ata-oğul, ər-arvad, nişanlılar arasında sədaqət, krala, xana (başçıya), dosta, qadına münasibət**,** hökmdarların davranışı və bu kimi bir çox sosial davranış etiketləri kifayət qədər geniş yer almışdır.

İkinci fəslin **"Eposlarda kişi mövqeyi"** adlanan birinci paraqrafında müəyyənləşdirilmişdir ki, Oğuz cəmiyyəti qarşısında mənəvi borc eldən, ailədən, valideyn qarşısındakı borcdan başlayır. Oğuz ailəsinin bir çox özünəməxsus qayda-qanunları vardır. Burada kiçiklər böyüklərə, oğullar atalara tabedir. Oğul atadan təlim görür. Ondan öyrəndiklərini həyata keçirir. Dədə Qorqud boylarının sonluqlarında, bir qayda olaraq, Dədə Qorqud dili ilə deyilən xeyirxah diləklər içərisində ağsaqqal ataya alqış, ölən qocalara rəhmət oxunur.

Eposda sosial münasibətlərə nəzər saldıqda ata-oğul arasındakı münasibətlər olduqca mürəkkəb və ziddiyyətli şəkildə cərəyan edir. Oğul sevgisi ilə yanaşı, eposda bəzən ata-oğul qarşıdurmasının şahidi oluruq. Amma bu qarşıdurmalar sonda barışıqla nəticələnir. Kamal Abdulla milli folklorumuzda ata-oğul tipli ailədaxili münaqişələrin, yunan ədəbiyyatından fərqli olaraq, barışıqla nəticələnməsinin səbəbini belə izah edir: *"Dramatik nöqtə, yəni qarşı-qarşıya durma yunan mifində faciə məqamına*

*qaldırılırsa, oğuz mifində gərginlik heçə endirilir, müsbət emosiyalar üstünlük təşkil edir. Yunan mifində təkbətək qarşıdurmada Yeni Köhnəni tanımır ya tanımaq istəmir. Belə hal Köhnənin məhvi ilə nəticələnir. Oğuz mifində Yeni Köhnədə öz əlamətlərini tapa bilir, onu tanıyır, onun içindən öz doğuluşunu və müstəqilliyini təmin etməyə çalışır. Tam inkar və təbii əvəzetmə!"*[16]

Ata-oğul münasibətləri "Kitabi-Dədə Qorqud" eposundakı kimi geniş şəkildə olmasa da "Nibelunqlar nəğməsi" eposunda da öz əksini tapmışdır. Eposun II əhvalatında Ziqmundun oğlu Ziqfridə olan münasibətindən, Ziqfridin ailədəki statusundan, onun valideynləri tərəfindən aldığı tərbiyədən və s. söhbət açılır.

Eposda deyilir:

*"Niderlandda nəcib bir kralın oğlu böyüyürdü.*
*Atasının adı Ziqmund, anasının isə Ziqlind idi...*
*Bu qəddi-qamətli döyüşkən gəncin adı Ziqfrid idi.*
*O ölkələr boyu vuruşaraq qalib çıxırdı."*[17]

Mətndə oğlan övladının alman cəmiyyətində, kral ailəsində qürur mənbəyi olduğunu görürük. Sarayda hər kəs onun ayğısına qalırdı. Zaman keçdikcə boy atıb böyüyən Ziqfrid ata yurdunda şan-şöhrət qazanmışdı.

*"Qüsursuz tərbiyə aldı valideynlərindən*
*Amma onun təbiətən də böyük qəlbi var idi.*
*Gənc döyüşçü elə bu səbəbdən,*
*Doğma ölkəsinin bəzəyi sayılırdı."*[18]

İkinci fəslin **"Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"ndə xan-bəy, kral-vassal münasibətləri"** adlanan ikinci paraqrafında qeyd olunur ki, hər bir dastan xalqının

---

[16] Abdullayev, K. Sirr içində dastan və yaxud Gizli Dədə Qorqud-2 / K.Abdullayev. – Bakı: Yeni Nəşrlər Evi, Elm, – 1999. – s. 284.
[17] Veysəlli, F. Nibelunqlar nəğməsi / F.Veysəlli. – Bakı: Mütərcim, – 2017. – s. 41.
[18] Veysəlli, F. Nibelunqlar nəğməsi / F.Veysəlli. – Bakı: Mütərcim, – 2017. – s. 7

yaratdığı cəmiyyəti özündə ifadə etdiyi kimi, "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"ndə eposlarında qədim oğuz-türk və alman cəmiyyətinin dövlət quruluşu öz əksini tapıb. Qeyd etməliyik ki, hər iki dastan təxminən XII-XIII, XV-XVI əsrlərdə yazıya alınıb. Həmin dövr, həm türk-oğuz, həm də alman cəmiyyətində feodal mühitinin formalaşdığı bir dövr idi. Tarixdən bəllidir ki, IV-VII əsrlər Avropa tarixində xalqların məskunlaşması dövrüdür. Bu dövrdə baş verən hadisələr "Nibelunqlar nəğməsi"nin əsas mövzusu olsa da, epos interpretatorlar tərəfindən XII-XIII əsrlərə qədər improvizələrə uğramışdır. Eposun tarixilik baxımdan morfoloji strukturunu bərpa etməyə çalışan A.Xoysler onu ümumgerman mədəniyyətinin bir hissəsi olan "Edda" mətnləri ilə müqayisə edir və o mətnləri daha arxaik hesab edirdi. Bununda öz səbəbi var idi. Qeyd edək ki, "Nibelunqlar nəğməsi"nə daxil olan bəzi mətnlər daha arxaik olan island saqalarında da öz əksini tapmışdır. Burada biz almanlara məxsus nəsil-qəbilə quruluşunun izlərini, "Nibelunqlar nəğməsi"də isə feodal dövlətinin izlərini görürük. Bunun səbəbini isə A.Xoysler belə izah edirdi: *"Alliterasiya ritmini qoruyub saxlamış həmin mətnlərdə bütpərəslik əhval-ruhiyyəsi güclü idi. Bu səbəbdən də alman kilsəsi onların səsləndirilməsinin qarşısını aldı. Qədim alman nəğmələri arasında alliterasiyalı həmin nəğmələr arasında yalnız "Hilderbrand nəğməsi" qoruna bilmişdi. Bu nəğmə ata ilə oğulun təkbətək döyüşündən bəhs edir"*[19].

Təbii ki, epos yazıya alındığı dövrdə istər dövlətçilik quruluşu, istər dini dəyərlər epik yaradıcılığa öz təsirini göstərməyə bilməzdi. "Nibelunqlar nəğməsi"ndə dövlət krallıq tərəfindən idarə olunur və "Kitabi-Dədə Qorqud"da olduğu kimi idarəçilik atadan oğula keçirdi. Mətndən aydın olur ki, onlara tabeolan vassalları mövcuddur. Əsərdə eləcə də, dövlətçiliyə aid digər vəzifələrin də adı çəkilir.

Qalın Oğuz dövlətində pul və maliyyə kimi kateqoriyalar da

[19] Хойслер, А. Германский героический эпос и сказание о Нибелунгах / А.Хойслер. – Москва: Иностранная Литература, – 1960. – с. 15.

var idi. Əslində, tarixi baxımdan bu dövrdə natural təsərrüfat üstünlük təşkil edirdi. Lakin əmtəə-pul münasibətləri, iqtisadi kateqoriyalar fəaliyyət göstərməsi Oğuzda dövlətin və dövlətçilik münasibətlərinin mövcud olmasını bir daha təsdiqləyir.

İkinci fəslin **"Eposlarda qadınların rolu, hər iki dastanda onların müqayisəli səciyyəsi"** adlanan üçüncü paraqrafında Feminist Antropologiyada vasitəsilə qadınların mədəniyyətlərdəki təcrübələri, rolları və töhfələri vurğulanır. Qeyd olunur ki, eposlarda kişi qədər qadın nüfuzu da mühüm rol oynayır və qadın xüsusi nüfuza sahib obraz kimi təqdim olunur.

Hər iki eposda maraqlı məqamlardan biri qadın səqadəti ilə bağlıdır. "Kitabi-Dədə Qorqud" eposunda qadının ərə sədaqəti "Duxa Qoca oğlı Dəli Domrul boyu"nda, "Nibelunqlar nəğməsi"ndə isə Ziqfridin dəfnində Krimhildin qardaşı Güntерə söylədikləri onun eşqinə olan sədaqətini göstərir.

Sosial münasibətlərdən olan ailə münasibətlərində gəldiyimiz nəticə ondan ibarətdir ki, hər iki eposda ailə münasibətləri təsvir edilsə də, oğuzlar arasında ailə münasibətləri olduqca qabarıq şəkildə əsk olunub. Atanın nüfuzu, ailədəki yeri, ana haqqının tanrı haqqına bərabər tutulması, övlad üçün candan keçmə, həmçinin övladın valideyn namusunu, şərəfini qorumaq üçün ölümə razı olması halları da mövcuddur.

Bu fəsildən əldə olunan əsas müddəalar müəllifin dərc edilmiş məqalə və konfrans materiallarında işıqlandırılmışdır.[20]

Üçüncü fəsil **Eposlarda sosial, mifik və etnik ənənələr** adlanır. Üçüncü fəslin **"Evlənmə motivləri - eqzoqamiya; sınaq şərtləri;**

---

[20] "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposlarında xan-təbəə münasibətləri, dövlətçilik stukturu // Azərbaycanşünaslığın aktual problemləri mövzusunda IX beynəlxalq elmi konfransın materialları, –Bakı: – 3-4 may, –2018, – s. 279-282; Ata-oğul münasibətləri ("Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposları əsasında) // – Bakı: Dil və Ədəbiyyat, – 2021. 1(115), – s. 159-162; Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi"ndə qadınların rolu, hər iki eposda onların müqayisəli səciyyəsi // – Bakı: Elmi əsərlər. Dil və Ədəbiyyat seriyası. – 2021. №1, – s. 255-260; "Kitabi-Dədə Qorqud" və "Nibelunqlar nəğməsi" eposlarında qadın sədaqəti // "Germanistikanın yeni yolları. Avropa və Qafqaz arasında ədəbiyyat və mədəniyyət mübadiləsi" mövzusunda elmi konfrans, – Bakı: – 6-8 may, – 2022, – s.146-148.

**döyüşçü qadın"** adlanan birinci paraqrafında tədqiqata cəlb olunmuş hər iki epik mətndə eqzoqamiya hadisəsi araşdırılır.

Eposlarda qəhrəmanların evləndiyi qız başqa elə məxsus olur və evlənmək üçün qız arxasınca gedilir. Türk xalqlarında qız arxasınca getmənin özünəməxsus yer tutması və toydan əvvəlki mərhələni təşkil etməsi mərasim folkloru tədqiqatçılarının da diqqətindən yayınmamışdır. A.Nəbiyev Azərbaycan toyunun bütöv mənzərəsini açarkən onun bir sıra dayaqlar üzərində - *"qız görmə, qız seçmə, qızı (oğlanı) sınama ilə bağlı olduğunu qeyd edir*[21].

Eposlarda olan sınaq şərtləri, bu sınaqlardan keçmə, qadınların döyüşkənliyi, kişi və qadının bir-birilə döyüşməsi, döyüşçü qadınlar məğlub olduğu halda ona qalib gələn şəxslə evlənməyə razı olması istər skandinav, istərsə də türk dastanlarında olan oxşarlıqlardan biridir.

Üçüncü fəslin **"Etnik-milli ənənələrin təzahürü"** adlanan ikinci paraqrafında yüzilliklərin sınağından çıxan, formalaşan adət və ənənələr xalqın gündəlik həyatında, məişətində özünü sıx-sıx göstərən əxlaqi məsələlərə toxunulur. Qədim tarixə malik olan vətənimizin zəngin milli, əxlaqi və mənəvi dəyərləri, özünəxas adət və ənənələri, yüksək mənəviyyatı ilə diqqəti cəlb edir.

Əski təsəvvür və etiqadlarla bağlı olan mənəvi-əxlaqi dəyərlər – xeyir, tərəqqi, yaxşılıq, bəşərilik "Kitabi-Dədə Qorqud" eposunda oğuz humanizminin necə yüksək olduğunu bizə göstərmiş olur. Eposlarda yas, öymə, qaxınc (edilən yaxşılığı adamın üzünə vurma, minnət qoyma, tənə etmə - F.K.) kimi adətlərə rast gəlinir. İlkin təfəkkür çağında insanlar ölümü həyatın bitməsi hesab etməmişlər. Məişət mərasimləri sırasında olan yas ölümlə bağlı olmuşdur.

Yas mərasimində bir sıra ayinlər vardır ki, bunlardan birincisi şivən ayinidir. Şivən, əsasən, ölüm hadisəsi baş verdiyi vaxtda olur. Müasir dövrümüzdə yas mərasimində şivənin müxtəlif formalarına – ölən şəxs üçün təsirli, yanıqlı sözlərlə,

[21] Nəbiyev, A. Azərbaycan xalq ədəbiyyatı / A.M.Nəbiyev. – Bakı: Elm, – I hissə. – 2006. – s. 18.

oxşamalarla hönkür-hönkür ağlamaq, üz cırmaq, saç yolmaq kimi əsas əlamətlərinə rast gəlmək mümkündür.

Oğuzlar arasında adətə çevrilmiş digər bir hal olan qaxınca "Kitabi-Dədə Qorqud"da sıx-sıx rastlanır. Öymə adəti isə hər iki eposda vardır:

*"On min ərdən yağı gördümsə, oyunum dedim.*
*Yiğirmi min ər yağı gördümsə, yılamadım"*[22].

"Nibelunqlar nəğməsi"ndə isə Krimhild Ziqfridi bu şəkildə öyür: *"Mənim ərim cəsur, həm də şanlıdır. Dağ yanında qurdabənzər əjdahanı öldürdü. Sonra onun qanında çimdi"*[23].

Qəhrəmanlar öymə ilə onların məğlub edilməz olduqlarını sübuta yetirmək istəyirlər. *"Öymə (ögmə) arxaik janrdır, sakral sözdür, mifik-sakral enerjiyə malikdir"*[24].

Üçüncü fəslin **"Eposlarda mifik dünyagörüşünün əksi"** adlanan üçüncü paraqrafında geniş sosial-psixoloji təsirə malik olan mifə rast gəlinir. Mif bütövlükdə kollektivin davranış tərzidir. Mifoloji təsəvvür insanın dünyagörüşünün əsasını formalaşdıran, onun hərəkətlərinin normativ sistemini müəyyənləşdirən, onun təbiətlə münasibətlərini tənzimləyən və cilalayan bütöv bir yaşayış üsuludur.

"Basat Təpəgözü öldürdüyü boy"da oğuz xalqının mifik dünyagörüşü əks olunur. P.Mirabilin Təpəgözə olan münasibətini və bu münasibətin digər tədqiqatçılardan fərqləndiyini qeyd edən S.Əliyev onun fikirlərini bu şəkildə dilə gətirir: "*O, hər şeydən əvvəl, Təpəgözün mifik və ya ictimai bir varlıq olmasını aydınlaşdırmağa can atır. Məlumdur ki, Təpəgözün anası pəri, atası isə oğuzların nümayəndəsidir. Qeyri-insani formaya düşən*

---

[22] Kitabi-Dədə Qorqud". Əsil və sadələşdirilnıiş mətnlər / Tərt.ed. S.Əlizadə, Nəşrə haz. və red. T.Hacızadə. – Bakı: Öndər nəşriyyatı, – 2004. – s. 142

[23] Песнь о Нибелунгах. Серия литературных памятников / Изд. подгот. В.Г.Адмони, В.М.Жирмунский, Ю.Б.Корнеев Н.А.Сигал. – Санкт Петербург: Наука, – 2004. – с. 12.

[24] Kamal, R. "Kitabi Dədə Qorqud": arxaik ritual semantikası / R.Kamal. – Bakı: Yeni Nəşrlər Evi, Elm, – 1999. – s. 35.

*və gücə malik olan Təpəgöz Avropa dastanlarındakı digər mifik qüvvələrdən onunla fərqlənir ki, onun damarlarında Oğuz qanı axır və onu Oğuz özü yaradıb, bəsləyib"*[25]. Eposda Təpəgöz obrazı təsadüfən yaranmayıbdır: *"Dastandakı zorlanan pəri kafir qızlarının, ondan doğulan Təpəgöz isə, Oğuza nifrət ruhunda tərbiyə olunan uşaqların ümumiləşdirilmiş obrazıdır"*[26].

"Nibelunqlar nəğməsi"ndə də mifik obrazlar yer almışdır. Məsələn, gənc Ziqfrid meşədə əjdaha ilə döyüşür və onu öldürüb qanında çimir, bədəni zireh bağlayır. Bu, "Kitabi-Dədə Qorqud" eposunda Basatın şir tərəfindən tapılması, onu öz südü ilə bəsləməsinə bənzəyir. Ziqfrid kimi ona mifik güc gəlir. Digər bir tərəfdən isə Ziqfridi Təpəgözlə müqayisə etmək olar. Çünki hər iki qəhrəmanın bədənində yalnız bir qorxulu yeri var. Təpəgöz gözündən, Ziqfrid isə yalnız əjdaha qanında çiməndə onun belinə yapışıb qalan cökə yarpağının tutduğu hissədən xəsarət ala bilər (Qədim Yunan mifologiyasında Axillesin dabanı kimi). "Nibelunqlar nəğməsi"ndə Ziqfridin uşaqlıqda qeyri-adi igidlik göstərməsini haqda məlumata rast gəlmirik. Alman versiyasına əsasən, Ziqfrid-Siqurd əjdahanın qanındayuyunmuş və hər bir silah üçün əlçatmaz varlığa çevrilmişdir. Bu motiv əjdaha ürəyinin həzm edilməsi motivi ilə uyğundur, nəticədə isə qəhrəman müdriklik əldə edərək quş dilində danışa bilir. Orada da qanın xüsusi rolu nəzərə çarpır. Siqurdun dilinə sadəcə bir neçə damcı qan dəyir. Amma bu, quş dilinin öyrənilməsi üçün kifayət edir. Bu, hər şeydən əvvəl qədim adətlərlə bağlıdır, qana və düşmənin bədəninə qarşı xüsusi münasibətdən qaynaqlanır. Beləliklə, məsələn, "Nibelunqlar haqqında nəğmə"nin ikinci hissəsində Hagen susuzluğu yatırmaq və güc toplamaq üçün düşmənlərin qanını içməyə çağırır. O, qanı ən yaxşı içki adlandırır.

"Kitabi-Dədə Qorqud" eposunda mifik Təpəgöz obrazı ilə "Nibelunqlar nəğməsi"ndəki Hageni də müqayisə etmək olar.

---

[25] Kitabi-Dədə Qorqud - 1300: filoloji araşdırmalar IX kitab // Elmi red: V.Sultanlı; Ön söz müəllifi: Q.S.Təbrizi; M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universiteti. –Bakı: – 1999. – s. 199.
[26] Yenə orada – s. 200.

Təpəgözün məğlubedilməzliyinin simvolu sehrli üzükdürsə, Hagen də bu, Ziqfriddən qalma sehrli qılıncdır.

Eposlarda oxşar məqamlardan biri də yuxu motividir. Oğuzlar arasında yuxuya inam geniş yayılıb. Yuxunu yozmaqla onlar baş verəcək hadisələri, taleyi müəyyənləşdirməyə çalışırlar. Rüstəm Kamal qeyd edir ki, mifoloji ənənədə ömür bir yuxudur. Yuxular qəhrəmanların davranışını və taleyini müəyyənləşdirir. Yuxugörmə, yuxu yozumu əslində, müdrikliyin əsasını təşkil edir. Yuxunu idarəetmə müdriklik və sakral səviyyədə mümkündür. Bu yuxular daha çox real gerçəkliyə əsaslanır və oğuz psixikasının etnik xüsusiyyətlərini müəyyən dərəcədə əks etdirmiş olur.

Yuxugörmə hadisəsini geniş şəkildə araşdırıb tədqiqata cəlb edən prof. Cəlil Nağıyev yuxugörmə hadisəsinin ilk olaraq parlaq şəkildə Esxilin "Farslar" faciəsində verildiyini qeyd edir. Araşdırmada həm qədim yunanalıların, həm də Yaxın və Orta Şərq xalqlarının yuxuyozanlar olmadan hərbi yürüşə çıxmadıqları qeyd edilir. Eyni zamanda professor C.Nağıyev Bibliyada yuxugörmə və yuxuyozma süjetindən bəhs edir və Qədim Misirdə yuxugörmə hadisəsinin ilkin konsepsiya şəklində formalaşmağa başladığını yazır.

Eposlarda rast gədiyimiz yuxular daha çox real gerçəkliyə əsaslanır və oğuz psixikasının etnik xüsusiyyətlərini müəyyən dərəcədə əks etdirmiş olur.

Qədim alman rəvayətinin arxaikliyi bir çox cəhətdən Skandinaviya əfsanələri ilə uyğundur. Bu xüsusda eposda Krimhildin yuxusu motivini önə çəkmək olar. Qəhrəman öz yarını heyvan surətində görür, bu isə qədim totem təsvirlərinə görə həyat yoldaşının heyvani təbiətindən xəbər verir. Qədim dövrə aid ilkin mənbələrin əsas kompleksi isə Ziqfridlə bağlıdır. Həmçinin "Nibelunqlar nəğməsi"ndə Krimhildin gördüyü yuxu eposun bütün faciəsini qabaqcadan göstərmiş olur. O, yuxuda şahinin qartal tərəfindən məhv olunduğunu görür. Bu yuxu onu çox sarsıdır və Krimhild yuxusunu anası Utaya danışır: *"Sarayda dəbdəbəli həyat sürərkən Krimhild yuxu gördü: Qüvvətli, gözəl və vəhşi şahini, iki qartal qəfil vurub parçaladı. Bunu o görməli idi!*

*Həyatda bundan böyük iztirab ola bilməzdi”*[27]

Qazan xan da, Krimhild də yuxuda şahinin öldürüldüyünü görür. Bu bənzərlik bizim fikrimizcə təsadüfi deyildir. Onu da vurğulamaq lazımdır ki, Potanin Avropa eposlarında bol-bol istifadə olunan yuxu motivinin şərq eposlarından alındığını yazır.

Hər iki eposda yuxu motivlərinə rast gəldik və bu motivlər eposlar arasında olan oxşarlıqlardan biridir. Yalnız fərq ondan ibarətdir ki Krimhildin yuxu sonra baş verə biləcək hadisələrə işarədirsə, Qazan xanın gördüyü yuxu artıq olmuş hadisələri özündə əks etdirir.

Bu fəsildən əldə olunan əsas müddəalar müəllifin dərc edilmiş aşağıdakı məqalə və konfrans materiallarında işıqlandırılmışdır[28]

**Nəticədə** tədqiqata yekun vurulmuş, ümumiləşdirilmiş, müdafiəyə çıxarılan əsas müddəa və nəticələr formalaşdırılmışdır.

1. Epos mətnləri mədəniyyət antropologiyası baxımından yalnız davranış etiketləri kimi çıxış etmir, həm də süjetin motiv strukturunu təşkil edir. Tədqiqat vasitəsilə müəyyən olunur ki, mədəniyyət antropologiya prizmasından - epos qəhrəmanlarının davranışı, süfrə etiketləri tədqiqata cəlb olunmaqla etnik-mədəni konteksti müəyyənləşdirmək mümkündür.

2. Hər iki eposda geyim etikası xüsusi yer tutur. “Kitabi-

---

[27] Veysəlli, F. Nibelunqlar nəğməsi / F.Veysəlli. – Bakı: Mütərcim, – 2017. – s.40.

[28] Eski türk kültürlerinde ziyafet ve cenaze törenleri (destanlar üzerine) // – Afyonkarahisar-Kazan: Türkoloji üzerine araştırmalar, Тюркологические исследования, – 2012. №3, – s. 16-21; “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarında evlənmə motivləri – eqzoqamiya; sınaq şərtləri; döyüşçü qadın // – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri, – 2020. №57, – s. 230-233; Etnik-milli ənənələrin təzahürü (“Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposları əsasında) // – Bakı: Humanitar elmləri öyrənilməsinin aktual problemləri, – 2021. №2, – s. 107-110; “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarında yuxu motivləri // “İnterdistiplinar şəbəkələşmə, dayanıqlı inkişaf və planetimizin yaşıllaşdırılması” prizmasında III Beynəlxalq elmi simpozium, – Bakı: – 4-5 oktyabr, – 2024, – s.218-219; Отражение мифического мировоззрения в эпосах “Книга моего Деда Коркута” и “Песни о Нибелунгах” // Современные проблемы филологии и методики преподавания языков: вопросы теории и практики VIII Международная научно-практическая конференция, – Елабуга: – 11-12 октября, – 2024, – с.205-207.

Dədə Qorqud” dastanında qəhrəmanların geyimləri geniş təsvir edilmir, əksinə onların fiziki görkəmi önə çəkilirr (boyu uzun Burla xatun, qaza bənzər qız-gəlin və s.) “Nibelunqlar nəğməsi”ndə isə fərqlidir. Almanlarda geyim kultu mövcuddur və onlar bu kultu sevərək yerinə yetirirlər (gün ərzində 3 dəfə paltar dəyişilməsi və s).

3. Hər iki cəmiyyətdə oğul faktorunun əhəmiyyəti böyükdür.

4. Feminist antropologiya qadınların mədəniyyətlərdəki rolu və statusu əsasında, hər iki epik əsərdə qadın obrazlarının təsvirini analiz edərək, genderin etik qaydalara necə təsir etdiyini izah edir. Bu təhlil, qadın və kişi obrazları arasındakı münasibətləri və sosial strukturların necə formalaşdığını göstərir.

5. Hər iki epik mətnin oxşar cəhətlərdən biri də eqzoqamiya hadisəsi ilə bağlıdır. Əski toy adət-ənənəsi, sınaq şərtləri müqayisəli şəkildə təhlil edilib. Diqqət çəkən bir məqam isə toydan əvvəl təşkil edilən sınaq şərtlərinin oxşalığı ilə bağlıdır – sınaq şərtləri, bu sınaqlardan keçmə, qadınların döyüşkənliyi, ər-arvadın bir-birilə döyüşməsi və s.

6. “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarında mədəniyyət antropologiyası vasitəsilə ortaya çıxan digər bir oxşarlıq geniş sosial-psixoloji təsirə malik olan miflərdir. “Kitabi-Dədə Qorqud”da əsas miflərindən biri əfsanəvi qəhrəman Salur Qazanın hekayəsidir ki, onun şücaətləri və nəhəng düşmənlərlə döyüşləri ideal cəsarət və güc xüsusiyyətlərini vurğulayır.

“Nibelunqlar nəğməsi”nin mərkəzi miflərindən biri də əfsanəvi qəhrəman Ziqfridin hekayəsidir. ki, onun faciəvi taleyi qəhrəmanlıq və faciənin təcəssümünə çevrilir.

Ümumiyyətlə, “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarının tədqiqata cəlb olunması təsadüfi deyil. Eposlar arasında səsləşən çoxlu sayda paralellər, oxşarlıqlar tapmaq mümkündür. Bu məqamları nəzərə alıb qeyd edə bilərik ki, eposun mədəniyyət antropologiyasının mənbəyi olması yalnız bir xalqa deyil, bütünlükdə istər şərq, istərsə də qərb kulturoloji düşüncəsinin ifadə forması olduğunu təsdiq edir.

**Tədqiqatın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xarici ölkələrdə dərc edilmiş aşağıdakı məqalələrində və iştirak etdiyi konfransların materiallarında öz əksini tapmışdır:**


1. Система обрядов в средневековом эпосе (на материале «Китаби-Деде Коркут» и «Песни о нибелунгах») // Давид Кугильтинов – поэт, философ, гражданин. Материалы Всероссийская научная конференция посвященная 90-летию со дня рождения выдающегося российского поэта, – Элиста: – 10-14 апреля, – 2012, – с. 107-108.
2. Eski türk kültürlerinde ziyafet ve cenaze törenleri (destanlar üzerine) // – Afyonkarahisar-Kazan: Türkoloji üzerine araştırmalar, Тюркологические исследования, – 2012. № 3, – s. 16-21.
3. Одежда как элемент этикета (на материале эпосов «Китаби-Деде Коргут» и «Песни о нибелунгах) // – Москва: Вестник. Московского государственного лингвистического университета. Труды международного института языков государств – участников СНГ и института регионоведения консорциума гуманитарных университетов государств – Членов ШОС, – 2013. №21 (682), – с.144-152.
4. Döyüş və ziyafət geyimləri (“Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposları əsasında) // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları, – Bakı: – 7-8 aprel, – 2015, – s. 399-401.
5. Этикеты блюд и элементов в эпосах (на материале эпосов «Китаби-Деде Коркут» и «Песни о нибелунгах») // Современная филология: теория и практика. Материалы XIX международной научно-практической конференции, – Москва: – 9-10 апреля, – 2015, – с. 118-123.
6. “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarında xan-təbəə münasibətləri, dövlətçilik stukturu //

Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş IX beynəlxalq elmi konfransın materialları, – Bakı: – 3-4 may, – 2018, – s. 279-282.

7. “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarında evlənmə motivləri – eqzoqamiya; sınaq şərtləri; döyüşçü qadın // – Bakı: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji xəbərləri, – 2020. №57, – s. 230-233.
8. Ata-oğul münasibətləri (“Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposları əsasında) // – Bakı: “Dil və Ədəbiyyat” Beynəlxalq elmi-nəzəri jurnal, – 2021. 1(115), – s. 159-162.
9. Etnik-milli ənənələrin təzahürü (“Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposları əsasında) // – Bakı: Humanitar elmləri öyrənilməsinin aktual problemləri, – 2021. №2, – s. 107-110.
10. Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi”ndə qadınların rolu, hər iki eposda onların müqayisəli səciyyəsi // – Bakı: Elmi əsərlər. Dil və Ədəbiyyat seriyası. – 2021. №1, – s. 255-260.
11. “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarında qadın sədaqəti // “Germanistikanın yeni yolları. Avropa və Qafqaz arasında ədəbiyyat və mədəniyyət mübadiləsi” mövzusunda elmi konfrans, – Bakı: – 6-8 may, – 2022, – s.146-148.
12. “Kitabi-Dədə Qorqud” və “Nibelunqlar nəğməsi” eposlarında yuxu motivləri // “İnterdistiplinar şəbəkələşmə, dayanıqlı inkişaf və planetimizin yaşıllaşdırılması” prizmasında III Beynəlxalq elmi simpozium, – Bakı: – 4-5 oktyabr, – 2024, – s.218-219.
13. Отражение мифического мировоззрения в эпосах “Книга моего Деда Коркута” и “Песни о Нибелунгах” // Современные проблемы филологии и методики преподавания языков: вопросы теории и практики VIII Международная научно-практическая конференция, – Елабуга: – 11-12 октября, – 2024, – с.205-207

14. Застольный этикет (элементы питья) эпосов “Книга моего Деда Коркута” и “Песни о Нибелунгах” // – Москва: Филологический вестник, Белгород, – 2025. №1, – s. 108-114.

Dissertasiyanın müdafiəsi 11 aprel 2025-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1001, Bakı şəh., İstiqlaliyyət küçəsi 53.
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 7 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:14.02.2025

Kağızın formatı: A5

Həcm: 39 407

Tiraj: 100